# 2017-ci il nəqliyyat sektoru üçün əlamətdar il olmuşdur

***Sabitlik bütün sahələrdə tərəqqinin zəruri şərtlərindən biridir. Beynəlxalq təcrübədən də göründüyü kimi, sabitlik pozulan zaman inkişaf da dayanır, ölkə iqtisadiyyatı tənəzzülə uğrayır, sərmayə qoyuluşu azalır. Bu mənada ölkəmizdə təmin edilmiş sabitlik inkişafın əsasını təşkil edir, desək yanılmarıq. Eyni zamanda, əldə edilən inkişaf da sabitliyin təminatı üçün əsas yaradır. Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına dair iclasında Prezident İlham Əliyevin qeyd etdiyi kimi, ölkəmizin təhlükəsizliyi, iqtisadi və sosial inkişafı, beynəlxalq arenada artan rolu sabitliyin təmin olunmasında mühüm önəm daşıyır.***





Məhz ölkəmizdə təmin edilmiş sabitliyin, həyata keçirilən sosial-iqtisadi və siyasi islahatların nəticəsidir ki, 2017-ci ildə də uğurlu inkişaf davam etmişdir. Dünyanın müxtəlif yerlərində risklərin, təhlükələrin, qanlı münaqişələrin, qarşıdurmaların artmasına rəğmən Azərbaycanda bütün sahələrdə tərəqqi təmin edilmiş, multikultural dəyərlər qorunmuş, müxtəlif millətlərə və dinlərə məxsus insanların bərabərhüquqlu, mehriban yaşayışı qorunub saxlanmışdır. Bir sözlə, risk və təhlükələrin artdığı bir vaxtda Azərbaycanda sabitlik, təhlükəsizlik, normal həyat təmin edilir.

Təbii ki, məşhur atalar sözündə də vurğulandığı kimi, sabitlik olan yerdə inkişaf da olacaqdır. Məhz bu sabitliyin əsasında Azərbaycan iqtisadiyyatı 2017-ci ildə də artıb və ən sevindirici hal ondan ibarətdir ki, qeyri-neft sektorunda 2,5 faizlik artım təmin edilib. O cümlədən, sənaye sahəsində qeyri-neft sektorumuz 3,6 faiz, kənd təsərrüfatı isə 4,1 faiz artıb. 2017-ci il bir sıra önəmli infrastruktur və sosial layihələrin reallaşdırılması ilə yadda qalıb.

Ölkədə nəqliyyat sektoruna göstərilən diqqət və qayğının nəticəsidir ki, yalnız 2017-ci ildə 1300 kilometr avtomobil yolu salınıb. Bu sahəyə ayrılan vəsaitin artırılması hesabına respublikanın 500-dən çox kəndinə yeni müasir yol çəkilib. Bu da təbiidir, ona görə ki, hazırda ölkə iqtisadiyyatının sürətli və hərtərəfli inkişafında nəqliyyat sektorunun xüsusi yeri var. Bu sektor məhsul və xidmətlərin istehsalı, paylanması və istehlakı sahəsində fəaliyyət növlərini əhatə edir və bütün iqtisadi fəaliyyətlər məcmusunda inkaredilməz rola malikdir.

Dünya ölkələri arasında iqtisadi əlaqələrin genişlənməsi və inteqrativ proseslərin sürətlənməsi nəqliyyat sisteminin hər bir ölkənin milli iqtisadiyyatının əsas sütunlarından olduğunu təsdiqləmişdir. Nəqliyyat xidmətlərinin sosial-iqtisadi mahiyyətini aydınlaşdıran tədqiqatçılar bu sistemin geniş təkrar istehsalın mühüm şərti olduğunu çoxdan sübut ediblər. Bu baxımdan iqtisadiyyatda genişmiqyaslı köklü islahatların aparıldığı indiki şəraitdə nəqliyyatın xüsusiyyətlərini, iqtisadi və sosial proseslərin gedişində onun rolunu dəqiqliklə nəzərə alan siyasətin formalaşdırılması və həyata keçirilməsi çox vacibdir. Ona görə də nəqliyyat sisteminin davamlı inkişafı böyük həcmli kapital qoyuluşunu, çoxlu sayda iri nəqliyyat qovşaqlarının tikintisini və yenidən qurulmasını tələb edir.

Ölkə başçısının rəhbərliyi ilə Nazirlər Kabinetinin 2017-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına dair iclasında da səsləndirildiyi kimi, 2017-ci il energetika sahəsində uğurlu olmuş, Avropanın enerji təhlükəsizliyində ölkəmizin rolunu möhkəmləndirən "Azəri-Çıraq-Günəşli" yatağı üzrə kontraktın müddəti 2050-ci ilə qədər uzadılmışdır. Bu isə ölkəmizə imkan verəcəkdir ki, ən azı 2050-ci ilə qədər hasilat səviyyəsi sabit qalsın. Adıçəkilən müqavilənin müddətinin uzadılması ilk növbədə, SOCAR-ın payının 11 faizdən 25 faizə qaldırılmasına, Azərbaycan tərəfinə çatacaq mənfəət neftinin 75 faiz olmasına imkan yaradır.

2017-ci ildə Cənub Qaz Dəhlizinin uğurlu icrası da təmin edilmişdir. Nazirlər Kabinetinin iclasında deyildiyi kimi, Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz kəməri 93 faiz icra edilib və TANAP layihəsinin icrası 90 faizə bərabərdir. Bu isə o deməkdir ki, ölkəmizə uzunmüddətli və irihəcmli dividendlər vəd edən Cənub Qaz Dəhlizi də reallaşmaq üzrədir. Enerji nəqli istiqamətində əldə edilən uğurlar, irəliləyişlər digər sahələrə də öz təsirini göstərmişdir. Bakıdan başlanan, ümumi uzunluğu 850 kilometr olan və 504 kilometri Azərbaycanın ərazisinə düşən Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı nəinki ölkəmiz üçün, bütün dünya üçün ilin ən uğurlu hadisələrindən biridir.

Aydındır ki, nəqliyyat yalnız sərnişin və yük daşımalarını həyata keçirmir, eyni zamanda, məhsuldar qüvvələrin inkişafına, təbii ehtiyatların və əmək resurslarının istehsal dövriyyəsinə operativ cəlb olunmasında, əhali məskunlaşmasında və məhsuldar qüvvələrin ərazi üzrə optimal yerləşdirilməsində mühüm rol oynayır. Dünya ölkələri arasında iqtisadi əlaqələrin səmərəliliyinin yüksəldilməsi və yük axınlarının əlverişli tənzimlənməsinin həyata keçirilməsi hər bir nəqliyyat sahəsində beynəlxalq normalara uyğun təkmilləşdirmə işlərinin aparılmasını tələb edir. Ölkələr yerləşdikləri coğrafi mövqedən asılı olmayaraq çalışırlar ki, öz məhsullarını daha sərfəli yollarla dünya bazarlarına çıxarsınlar və daha çox səmərə əldə etsinlər. Məhz bu baxımdan beynəlxalq əhəmiyyətli nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan Respublikasının əlverişli nəqliyyat sisteminə malik olması dünyanın bir çox ölkələri ilə qarşılıqlı səmərəli iqtisadi əlaqələrin həyata keçirilməsinə münbit şərait yaradır.

Əlverişli şəraitdən maksimum faydalanmaq məqsədilə, eləcə də milli nəqliyyat sisteminin beynəlxalq nəqliyyat sisteminə inteqrasiyasını təmin etmək üçün dəmir yolu, dəniz, avtomobil, hava, boru kəməri, o cümlədən şəhər nəqliyyatı sahələri geniş təhlil edilməli və daha səmərəli istifadə yolları müəyyən olunmalıdır. Müasir şəraitdə nəqliyyat qovşaqlarının əmələgəlmə xüsusiyyətləri və buraxılış imkanları dərindən araşdırılmalıdır. Ümumiyyətlə, səmərəli nəqliyyat əlaqələrinin qurulması, nəqliyyatda idarəetmənin təkmilləşdirilməsi, nəqliyyat sektorunun, nəqliyyat-tranzit xidmətlərinin büdcənin əsas gəlir mənbələrindən birinə çevrilməsi üçün ölkənin iqtisadi rayonları üzrə nəqliyyat sistemi, hər bir iqtisadi rayonun spesifik xüsusiyyətləri, daxili və beynəlxalq yükdaşımada iştirak imkanları ətraflı təhlil edilərək qiymətləndirilməli və perspektiv imkanlar aydınlaşdırılmalıdır. Məhz bu zərurətdən irəli gələn ardıcıl və qətiyyətli addımların atılmasının, lazımi layihələrin reallaşdırılmasının nəticəsidir ki, 2017-ci il nəqliyyat sektoru üçün mühüm hadisələrlə əlamətdar olmuşdur.

Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi 2017-ci il üçün nəqliyyat sektorunda ən böyük uğur hesab edilə bilər. Ölkə başçısının sözləri ilə desək "Bakı-Tbilisi-Qars dəmir yolu üç ölkənin nəqliyyat sahəsində yazdığı yeni tarixdir". Ölkəmizə nəqliyyat və tranzit üstünlüyü qazandıran Bakı-Tbilisi-Qars yeni dəmir yolu üç ölkənin ərazisindən keçir və ümumi uzunluğu 838,6 kilometrdir.

BTQ-nin istifadəyə verilməsi bir daha sübut etdi ki, regiona sabitlik, əmin-amanlıq və iqtisadi səmərə gətirə biləcək hər hansı layihənin reallaşmasında Azərbaycan nəinki iştirak edir, əksər hallarda onun təşəbbüskarı olur. Avropadan Asiyaya daşımaların ən qısa və səmərəli yolu Azərbaycanın iştirakı ilə mümkündür. Həm əlverişli coğrafi mövqe, həm də ölkəmizdə nəqliyyat sektorunun inkişafı, beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşdırılması istiqamətində görülən işlər ölkəmizi regionun mühüm nəqliyyat-tranzit qovşaqlarından birinə çevirməkdədir. Təsadüfi deyildir ki, bu sahə postneft dövrünün ən mühüm, perspektivli sahəsi hesab olunur.

Bakı-Tbilisi-Qars layihəsinin ölkəmiz üçün əhəmiyyətliliyinə gəldikdə, bütün iqtisadi dayaqlarla yanaşı, bu layihə tranzit daşımaların mərkəzinə çevrilən Azərbaycanın regionda söz sahibi olmasını təsdiqləyən bir faktor kimi çox önəmlidir. Bakı-Tbilisi-Ceyhan layihəsindən sonra ən vacib layihə olan BTQ artıq Azərbaycan dövlətinin, ölkə başçısının zəhməti, qətiyyəti və iradəsi sayəsində reallığa çevrilmişdir.

Bakı-Tbilisi-Qars Azərbaycan üçün istər sosial-iqtisadi, istərsə də siyasi-strateji baxımdan olduqca əhəmiyyətlidir. İlk növbədə, bir məsələni qeyd etmək lazımdır ki, müasir dünyada əsas yük axınları Çin-Hindistan-Avropa arasında müşahidə edilir. Bu istiqamətdə də birbaşa daşımalar dəniz nəqliyyatı ilə 26-30 günə yerinə yetirilir. Bakı-Tbilisi-Qars isə bu daşımaları daha təhlükəsiz və 12-15 günə yerinə yetirməyə imkan yaradacaqdır ki, bu da layihənin Çin-Hindistan-Avropa daşımaları üçün cəlbedici olduğunu, bu daşımaların ölkəmizə iri həcmli tranzit gəlirləri vəd etdiyini göstərir. Bu nəqliyyat arteriyasına qoşulmaqla Azərbaycan Çindən tutmuş Avropa ölkələrinə qədər müxtəlif dövlətlərdən yükləri qəbul edə və ya əksinə göndərə biləcək. Proqnozlar göstərir ki, bu dəmir yolu xətti vasitəsilə ilk illərdə 5 milyon ton, növbəti illərdə isə 15 milyon tona qədər yükün daşınması mümkün olacaq.

Orta Asiya respublikalarının və digər ölkələrin də gələcəkdə bu layihəyə qoşulması labüddür. Xüsusilə, son dövrlər Qərb-Rusiya arasında müəyyən gərginliyin yaranması, paralel olaraq Rusiya-Türkiyə münasibətlərində müşahidə edilən istiləşmə iki ölkə arasında ticarət dövriyyəsinin sürətlə artması, eləcə də Rusiya-Türkiyə dəmir yolu əlaqələrinin olmaması Rusiyanın da Bakı-Tbilisi-Qars layihəsinə qoşulmasını zəruri edəcəkdir. Nəticə etibarı ilə BTC-nin reallaşması ilə dünyanın enerji təhlükəsizliyində aparıcı bir dövlətə çevrilən Azərbaycan Respublikası Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə nəqliyyat-tranzit qovşağı kimi mövqeyini daha da möhkəmləndirəcəkdir. Layihənin davamı olaraq Bosfor boğazından dəmir yolu tunelinin tikintisi isə ölkəmizi Trans-Avropa və Trans-Asiya nəqliyyat şəbəkəsində aparıcı bir tərəfdaşa çevirəcək. Bütün bunlar tranziti büdcənin əsas gəlir mənbələrindən birinə çevirməyə imkan yaradacaq. İlk dövrlərdə ölkəmizin tranzitdən 50 milyon dollar civarında gəlir əldə etməsi proqnozlaşdırılır. Layihənin davamı olaraq, Qarsdan Naxçıvana birbaşa dəmir yolu xəttinin çəkilişi nəzərdə tutulur ki, bu da olduqca mühüm sosial-iqtisadi əhəmiyyət kəsb edir.

Layihənin reallaşması ölkəmizdə turizmin inkişafına da təsirsiz ötüşməyəcək. Bakı-Tbilisi-Qars dəmir yolu xətti Azərbaycanın, Gürcüstanın, Türkiyənin logistika baxımından çox böyük miqyasda daha da yaxınlaşmasına, üç ölkə arasında işçi qüvvəsinin rahat şəkildə axınına, turizmin, sənayenin, kənd təsərrüfatının, emal sahələrinin inkişafına şərait yaradacaq. Gürcüstan və Türkiyənin turizm imkanlarını, bu ölkələrdə turizmin inkişaf dinamikasını və perspektivlərini nəzərə alsaq, bütün bunlar imkan verəcəkdir ki, turizm Azərbaycan bazarında da inkişaf etsin və ölkəmizə turist axını artsın.

Digər tərəfdən, məlumdur ki, sahibkarlığı inkişaf etdirməklə Azərbaycan brendi ilə tanınan keyfiyyətli, rəqabətədavamlı yerli məhsulların dünya bazarlarına çıxarılması ölkə başçısının əsas tövsiyə və tələblərindəndir ki, burada da əsas vasitə kimi nəqliyyat əlaqələri çıxış edir. "Made in Azerbaijan" brendini dünyada tanıtmaq üçün mühüm amillərdən olan yerli məhsulların dünya bazarlarına çıxarılmasında da əsas nəqliyyat vasitəsi olan Bakı-Tbilisi-Qars dəmir yolunun böyük əhəmiyyəti olacaqdır. Bu dəmir yolu önəmli nəqliyyat vasitəsi kimi ölkəmizin qeyri-neft məhsullarının, "Made in Azerbaijan" brendi ilə dünya bazarlarına çıxarılan keyfiyyətli ərzaqların ixracını da sürətləndirəcəkdir. Ən əsası isə yüklərin mənzil başına yaxın yolla, qısa müddətdə çatdırılması təmin olunacaq.

Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin işə düşməsi ilə iştirakçı ölkələrdə məşğulluq və kiçik ticarət baxımından böyük bir canlanma yaradacaqdır. Ümumilikdə isə Bakı-Tbilisi-Qars kimi layihələrin inşa edilməsi, bununla Asiyadan Avropaya, Avropadan Asiyaya böyük həcmli yüklərin bir hissəsinin Azərbaycan üzərindən daşınması, bəzi yüklərin müəyyən zaman kəsiyində ölkədə saxlanması, yəni daşıma-saxlama xidmətləri göstərməyə imkan yaradacaqdır ki, bu da ölkəyə milyardlarla dolların gəlməsi deməkdir.

Mühüm sosial-iqtisadi gözləntilər vəd edən Bakı-Tbilisi-Qars layihəsinin siyasi əhəmiyyəti də xüsusi vurğulanmalıdır. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum layihələrindən sonra Azərbaycan, Türkiyə və Gürcüstanın birgə reallaşdırdığı üçüncü böyük layihə olan BTQ dəmir yolu hər üç ölkənin qarşılıqlı münasibətlərinin və əməkdaşlığının inkişafına da öz töhfəsini verəcəkdir. Bakı-Tbilisi-Qars dəmir yolunun açılmasının bir məqsədi də bölgədə yeni bir enerji dəhlizi yaratmaqdır. Azərbaycanın neft-kimya məhsullarının bu xətt üzərindən bütün dünyaya çatdırılması dünyanın enerji təhlükəsizliyində ölkəmizin rolunu daha da artıracaq və Avropanın enerji təminatında mövqeyimizi gücləndirəcək.

Digər tərəfdən, Orta Asiya respublikalarının, Rusiyanın və digər ölkələrin bu layihəyə cəlb edilməsi regionda sabitlik və dinamik tərəqqi üçün vacib amildir. O cümlədən, hazırda Türkiyə ilə İran arasındakı yolun müasir tələblərə tam cavab verməməsi, Van gölü və Saraksda gözləmələr daşımaları dəmir yoluna meyillənməyə vadar edəcəkdir. Nəticədə layihədən bəhrələnən ölkələrin sayı artacaqdır ki, bu da olduqca əhəmiyyətli siyasi uğurlar vəd edir.

Bakı-Tbilisi-Qars xəttinin istifadəyə verilməsi, xəttin davamı kimi Qars-Naxçıvan xəttinin çəkilişi Naxçıvan MR-in inkişafına mühüm dəstək verəcəkdir. Ermənistan üzərindən keçən və hələ də bu ölkənin işğalçılıq siyasətindən əl çəkmədiyinə görə bağlı olan Qars-Gömrü-Tbilisi xətti isə istifadəsiz qaldığı üçün Ermənistanın vəziyyəti daha da gərginləşəcək. Azərbaycan isə əksinə, Türkiyə ilə Orta Asiya ölkələri arasında quru yol baxımından daha artıq söz sahibi olacaq, tranzit yüklərlə bağlı iddialı hədəflərdən biri olan Qazaxıstan Respublikasından gələn marşrutların sayı artacaqdır. Hazırda qonşuları ilə dəmir yolu əlaqələrini gücləndirmək istəyən ölkələrdən biri də İrandır ki, bu da İran-Ermənistan münasibətlərində geriləməyə, İran-Azərbaycan və İran-Türkiyə münasibətlərində isə istiləşməyə səbəb olacaq.

Qeyd olunanlardan da göründüyü kimi, Bakı-Tbilisi-Qars sadəcə bir dəmir yolu layihəsi deyil, tarixi İpək Yolunun təkrar canlandırılması, bölgə ölkələri ilə iqtisadi, siyasi, ictimai və mədəni əlaqələrin möhkəmləndirilməsi layihəsidir. Bu dəmir yolu Avropaya Türkiyə-Gürcüstan-Azərbaycan üzərindən Orta Asiya və Uzaq Şərq arasında dəmir yolu ilə sabit yük və sərnişin daşımalarını həyata keçirməyə imkan verəcəkdir. Beləcə, dəmir yolu daşımalarının gətirəcəyi etibarlı iqtisadi daşıma modeli Avrasiya bölgəsindəki ölkələrin ticarət həcmlərinin artmasına və zənginləşməsinə, siyasi istiləşməyə kömək olacaq. Əlbəttə, Bakı-Tbilisi-Qars dəmir yolu layihəsindən ən çox qazanc Azərbaycanın payına düşər desək, yanılmarıq. Neft məhsulları ixracatçısı olan Azərbaycan idxalçı Türkiyəyə, Avropaya və digər bölgələrə dəmir yolu xətləri vasitəsilə bağlanmış olacaq. Azərbaycan Çin-Avropa arasında daşımalarda əhəmiyyətli bir mərkəzə çevriləcək.

Bakı-Tbilisi-Qars kimi layihələrin reallaşması təkcə regional əməkdaşlıq baxımından deyil, eyni zamanda, bölgənin beynəlxalq cəmiyyətə ən yaxşı şəkildə inteqrasiyası baxımından da əhəmiyyətlidir. Bölgənin iqtisadi inkişafını dəstəkləyən bu cür layihələr xalqlar arasındakı bağları gücləndirəcək, ölkələrin rifahı və sabitliyi üçün möhkəm təməllər yaradacaqdır. Layihənin rellaşması nəticəsində yüklərin Çin, Hindistan, Fars körfəzindən, Pakistan, İran, Azərbaycan, Gürcüstan üzərindən keçməklə, şimalda Rusiya və oradan Avropaya, qərb istiqamətində isə Gürcüstan və Türkiyə üzərindən Avropaya daşınmasına geniş imkanlar yaradacaqdır.

2017-ci ildə nəqliyyat sektorunun uğurları yalnız Bakı-Tbilisi-Qars layihəsinin istifadəyə verilməsi ilə məhdudlaşmır. Əvvəldə də qeyd edildiyi kimi, Strateji Yol Xəritələrinin uğurla reallaşdırılması, ölkəmizin nəqliyyat-tranzit qovşağı kimi potensial imkanlarının genişləndirilməsi istiqamətində görülən işlər daha ciddi uğurlar vəd edir. Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi ilə yanaşı, Şimal-Cənub nəqliyyat dəhlizi üzrə də Azərbaycan öz dəmir yolunu İran sərhədinə qədər inşa etmişdir. Eyni zamanda, Astara çayı üzərində 82 metr uzunluğunda dəmir yolu körpüsü tikilmiş və istifadəyə verilmişdir. Bundan əlavə, İran ərazisində 1,4 kilometr yol və terminallar tikilməsi üçün 35 hektarlıq ərazi Azərbaycan tərəfindən uzunmüddətli icarəyə götürülmüşdür. Beləliklə, Azərbaycan-Rusiya sərhədindən Azərbaycan-İran sərhədinə qədər dəmir yolu istismara tam hazır vəziyyətə gətirilmişdir. Bu yol Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin önəmli hissəsidir. Astara-Rəşt dəmir yolunun tikintisi və avadanlıqla təchiz olunması layihəsi üzrə Azərbaycan tərəfi İrana 500 milyon dollar dəyərində kredit ayırıb və hər iki tərəf kredit sazişini imzalayıb. Bütün bu işlərin nəticəsi olaraq Astara Azərbaycan-Astara İran yeni dəmir yolu xətti üzrə Azərbaycanda tikinti işləri yekunlaşıb.

2017-ci il həm də yük və sərnişin daşımalarının həyata keçirilməsi sahəsində iki və çoxtərəfli sazişlərin imzalanması ilə yadda qaldı. İl ərzində Azərbaycan, Gürcüstan, Ukrayna, İran, Rusiya, Türkmənistan və digər ölkələr ilə müvafiq sazişlər imzalandı. Bu da gələcəkdə tranzit daşımalardan daha çox vəsait əldə etməyə imkan yaradacaqdır.

Ötən ilin ən əlamətdar hadisələrindən biri də "Cənub-Qərb" nəqliyyat marşrutunun inkişaf perspektivləri ilə bağlı ilk yığıncağın keçirilməsi və ilkin razılaşmaların imzalanması olmuşdur. Yığıncaqda qərara alınıb ki, Hindistan – Fars Körfəzi – İran – Azərbaycan – Gürcüstan – Ukrayna – Avropa istiqaməti üzrə daşımaların optimallaşdırılmasına, həmçinin tərəflərin tranzit potensialının artırılmasına xidmət edəcək "Cənub-Qərb" nəqliyyat marşrutu üzərində əməkdaşlıq imkanları genişləndirilsin.

2017-ci ilin yadda qalan tədbirlərindən biri də müasir tələblərə cavab verən Bakı Dəmir Yolu Vağzalının sərnişinlərin ixtiyarına verilməsi oldu. Yenidən qurulmuş vağzalda biletlərin satışında müasir İKT-nin tətbiqi, elektron biletlərin əldə edilməsinin asanlaşdırılması, eləcə də vağzalda "ASAN xidmət"in fəaliyyətə başlaması sərnişinlərin xüsusi rəğbətinə səbəb olmuşdur.

***Aqil ƏSƏDOV,***
***AMEA İqtisadiyyat İnstitutunun şöbə müdiri, iqtisad üzrə fəlsəfə doktoru, dosent***